**Madər Məhərrəm qızı Əliyeva [119]**

# CƏLİL MƏMMƏDQULUZADƏNİN "ÖLÜLƏR" ƏSƏRİNİN TƏDRİSİNDƏ DİDAKTİKA MƏSƏLƏLƏRİ

**Giriş.** XIX əsrin sonları- XX əsrin əvvəlləri Azərbaycan tarixində mühüm ictimai-siyasi və mədəni dəyişikliklərin baş verdiyi bir dövr idi. Bu dövr həm cəmiyyətin maarifçilik ideyaları ilə tanış olduğu, lakin eyni zamanda cəhalət və geriliyin dərin kök saldığı bir mərhələ idi. İnsanlar elm və təhsilin rolunu dərindən dərk etmir, dini xurafatların təsiri altında qalırdılar. Mollaların, şeyxlərin din adı altında yaydıqları müxtəlif ideyalar xalq tərəfindən həqiqət kimi qəbul olunurdu. Xüsusilə, qadınların təhsildən uzaq qalması dövrün ən böyük problemlərindən idi. Onların təhsil almaları "ayıb" sayılır, əsas vəzifələrinin erkən yaşlardan evdar qadın olub ailələrinə xidmət etmək olduğu fikri aşılanırdı. Dövrün bu çatışmazlıqları maarifçi ziyalılarımızı daim narahat etmiş, hekayə və dram əsərlərində bu məsələni hər dəfə önə çıxararaq öz sözünü demiş və onu həll edəcək yollar axtarışında olublar. Belə ziyalı şəxslərdən biri də yazıçı, dramaturq, ictimai xadim Cəlil Məmmədquluzadədir. "Böyük ədib öz yaradıcılığında büsbütün qaranlıq bir dünyanı, cəhalət, dini fanatizm içində boğulan bir aləmi, başqa sözlə, başdan ayağa "zülmət səltənəti"ni təsvir edir" [3, s 61]. Hətta "Xatiratım" əsərində də gözünü bu dünyaya açan zaman qaranlıqdan başqa bir şey görmədiyini acı təəssüflə yazır. Ədibin bəhs etdiyi bu zülmət nə idi? Bu qaranlıq – patriarxal-feodal cəmiyyətinin cəhalət, mövhumat, nadanlıq və yuxuda olan xalqın əsarət dünyası idi. Klassik ədəbiyyatda da "yuxudan ayılma", "yuxu" metaforasına klassiklərin əsərlərində rast gəlinir. Bu yuxudan ayılma hər cür mənəvi örtüklərdən azad olub, özünü tanımaqdır. Nizami deyir: "Oyaq bəxtim mənə yardım edib,// Məni ağır yuxudan oyatdı.// Bundan sonra yaxşılığa doğru üz tutacağam,// Ürəyimi hər qəflətdən boşaldacağam [1, s 124]. Xalqı bu dünyanın zülmətindən çıxarıb işığa qovuşdurmaq, qəflət yuxusundan oyatmaq isə Mirzə Cəlilin yeganə arzusu idi.

**Əsas hissə.** "Cəlil Məmmədquluzadə yaradıcılığının II mərhələsi ədibin yaradıcılığının təkamülü dövrüdür və bu mərhələnin ilk nümunəsi "Ölülər" dram əsəridir" [5]. Dörd pərdədən ibarət olan "Ölülər" dramı 1909-cu ildə yazılıb. Əsər xurafata, nadanlığa, rəzilliyə, mövhumat dələduzlarının ifşasına həsr edilib.

Pyesdə bir sıra mühüm mövzulara toxunulur ki, bu mövzular həmin dövrün bəlaları idi. Cəlil Məmmədquluzadə obrazlar vasitəsi ilə bu bəlaları ifşa edir. Hacı Həsən obrazı dövrün cəhalət içində qalmış insanlarından sadəcə biridir. Şeyx Nəsrullahın həqiqətən ölü diriltdiyini və çox yüksək nüfuza malik şəxs olduğunu önə sürərək hələ on yaşına çatmamış qızını ona ərə vermək istəyir. Nəsrullahın bu qədər qızla kəbin kəsdirməyini isə "Allıahın əmridi, alır" deyərək özünün də bu "müqəddəs" şəxslə qohum olacağını arzulayır. Hacı Həsənin təhsilə, elmə göstərdiyi münasibət də əsərdə öz dili ilə ifadə edilib. İskəndərin təhsil alıb sərxoş vəziyyətə düşməyindən şikayətlənən Hacı Həsən təhsilin önəmsiz olduğunu söyləyərək müsəlman uşaqlarını təhsilə cəlb edən şəxslərə də lənət oxuyur. "Hələ bir para namərdlər müsəlmanlara məzəmmət eləyirlər ki, uşaqlarını dərsə qoymurlar... Vallah, billah bu adamlar qoymurlar ki, xalq başını salsın aşağa öz bildiyini eləsin" [2, s. 36].

Şeyx Nəsrullah obrazı isə belə düşünülür ki, heç də təxəyyülün məhsulu deyildir. Həqiqətən də belə bir şəxs olub və "ölü diriltmək"lə məşğul imiş. Əsərdə də Şeyx Nəsrullahın əsas silahı insanların dini biliyinin az olması və deyilən hər sözə kor- koranə inanmasıdır. "Əz-Zariyat" surəsində (11-ci ayə) deyilir: "O kəslər ki, cəhalət girdabına düşüb (haqdan) qafil olmuşlar!". Əz-Zumər surəsində (9-cu ayə) isə deyilir: "De: Heç bilənlərlə bilməyənlər (alimlə cahil) eyni ola bilərmi?" Haqqı bilən və tanıyan alim, haqqı bilməyən və tanımayan isə cahildir". Əgər şəhərin mollaları həqiqətən dinin tələblərini bilən savadlı və gözüaçıq olsa idilər, onlar da İskəndər kimi Nəsrullahın insanları aldadan fırıldaqçı olduğunu anlayardılar. Şeyx Nəsrullahın məqsədi insanları qorxu içində saxlayıb itaətkar vəziyyətə salmaqdır. Bu da cəmiyyətin daha da avamlaşmasına, geriləməsinə səbəb olur. Müəllif isə bu itaətdən çıxmağın yeganə yolunu təhsildə və oyanışda görür. Bu obraz real həyatda da mövhumatçı din adamlarının timsalında tez-tez rast gəlinən tipik obrazdır. Əsərin sonuna kimi o, öz oyununu davam etdirir və heç bir cəza almır. Çünki əhali özü onun yalanlarına inanır və itaət etməyə davam edir. Bu isə cəmiyyətin "ölü" olduğunu göstərən əsas məqamlardan biridir. Müəllif bu obraz vasitəsilə təkcə bir fırıldaqçını deyil, bütöv bir sistemin çürüməsini, xalqın dini savadsızlıq və ümumiyyətlə, təhsilsiz necə əsarətdə qaldığını açıq şəkildə göstərir.

Pyesin əsas obrazı İsgəndər isə ətrafındakı insanların nadanlığını, mövhumata kor- koranə inamını görən savadlı, lakin tək qalmış bir şəxsdir. O, insanlara doğru yola çağırmağa çalışır, mövcud vəziyyəti görüb həyatdan küskün düşərək içkiyə qurşanır və "kefli İsgəndər" adını alır. İsgəndər cəmiyyətin "ölü" olduğunu anlayan yeganə insandır, amma o qədər ümidsizdir ki, bu ölüləri oyada bilməyəcəyini hiss edir. Onun qardaşı Cəlala dediyi sözlər də bunu təsdiqləyir: "And olsun Qara ağac pirinə ki, sən də mənim kimi dərs oxuyub qurtarandan sonra başlayacaqsan İskəndər dadaşın kimi küplərin dibində yatmağa" [2, s. 34]. Bu sözlər təhsil və maarifin əhəmiyyətsiz olduğu bir mühitdə savadlı insanın özünü necə miskin və dəyərsiz hiss etdiyinin sübutudur.

Kefli İskəndər təkcə dini fanatizmi, savadsızlığı tənqid etmir, eyni zamanda cəmiyyətdəki qadınların taleyinə də etiraz edir. "Səhərdən axşama kimi oturubsan evdə, anandan bozbaş bişirmək dərsi alırsan, amma mənim yanıma gəlmirsən ki, gəzdiyim şəhərlərdən sənə nağıl eləyim, görəsən dünyada nə var, nə yox!" [2, s. 34]. İskəndərin bu sözləri maarifçi düşüncənin, qadın azadlığının və təhsilin vacibliyinin göstəricisidir. Lakin bu fikirlər cəmiyyətin

[119] Bakı Dövlət Universitetinin magistrantı, mader97529@gmail.com

qaydalarına tamamilə ziddir. Yazıçı İskəndər obrazı vasitəsilə öz fikirlərini ifadə edərək xalqı qəflət yuxusundan oyatmağa cəh göstərir.

"Ölülər" pyesi orta məktəb dərsliklərində yer almasa da, fikrimizcə, şagirdlər bu qiymətli əsərlə məktəbdə tanış olmalıdırlar. Müəllim sinifdənxaric oxu materialı kimi əsəri tədris edə bilər. Dram əsərinin tədrisindəki məqamlara da xüsusilə diqqət yetirilməlidir. Müəllim şagirdləri əsərlə tanış etmək üçün tamaşasından bir parçanı-Kərbəlayi Fətullahın dirilmə xəbəri verilən hissəni izlədə bilər. Məqsəd isə sinifdə əsərlə bağlı maraq oyatmaq və fraqment izləndikdən sonra şagirdlərin də fikirlərini öyrənməkdir. "Həqiqətən ölü bir şəxs dirilə bilərmi?" Bu sual ətrafında düşünən şagirdlərdə artıq müəyyən bir fikir formalaşacaq. Pyesin oxusunda rollar üzrə oxu əhəmiyyət kəsb edir. Müəllim sinifdəki şagirdlərin səs tembrini, psixoloji tiplərini nəzərə alaraq rollar üzrə oxuya hazırlamalıdır. Dram əsərinin rollar üzrə oxunması şagirdlərdə bir sıra mühüm bacarıqları və keyfiyyətləri formalaşdırır. Onlar obrazları canlandırarkən nitqlərini daha ifadəli və emosional şəkildə təqdim etməyi öyrənirlər.

Oxu prosesi başa çatdıqdan sonra müəllim sinfin əsəri nə dərəcədə qavradığını görmək üçün şagirdlərin fikirlərini dinləməlidir. İlkin mərhələdə əsərin adına diqqəti yönəldərək niyə "ölülər" adlandırıldığı haqqında müzakirə başladıla bilər. Bu, dövrün xüsusiyyətlərini, həmin dövrdəki insanların keyfiyyətlərini anlamaq üçün giriş xarakterli fikir mübadiləsidir. Müəllim şagirdlərə imkan yaratmalıdır ki, bu haqda öz versiyalarını söyləsinlər. Belə yanaşma uşaqlarda tənqidi düşüncə, söz azadlığı, ifadə bacarığı və öz fikirlərini əsaslandırmaq kimi keyfiyyətləri inkişaf etdirir.

Müəllimin izahı da şagirdlərin əsəri dərindən anlamağı üçün çox vacibdir. Ədəbiyyat fənnində əsər haqqında fikir söyləmədən öncə müəllim fənlərarası inteqrasiyadan istifadə edərək həmin dövr haqqında ətraflı məlumat verməlidir. Müəllim ilk olaraq pyesin XX əsrin əvvəllərində yazıldığını, bu dövrdə Azərbaycanın hələ Çar Rusiyasının tərkibində olduğunu və buna görə də xalqın inkişafının qarşısının alındığını vurğulayır. Əlavə edir: "Bunun nəticəsində təhsilə, savada düzgün qiymət verməyən xalq fırıldaqçı din adamlarına, müxtəlif xurafatlara inanır. Əlbəttə ki, xalqın içində savadlı, maarifpərvər kadrlar da yetişirdi. Onlar təhsilin önəmini dərk edirdilər və bunu digər insanların da görməyi üçün çalışırdılar. Lakin köhnə düşüncəli şəxslər onlara bu yolda müxtəlif maneələr törədirdi". Dövrün xülasəsini dinləyən şagirdlər artıq əsər haqqında daha geniş düşüncəyə malik olacaq.

Müəllimin əsərdəki obrazların keyfiyyəti, fərqli xüsusiyyətləri ilə bağlı sualları da onların iç dünyasını açmağa kömək edəcəkdir. Məsələn: "İsgəndər bu qədər savadlıdırsa, onun içkiyə qurşanmağının səbəbi nədir?". Onlar İsgəndərin həyatın eybəcərliklərindən uzaqlaşmaq üçün içki içdiyini söyləyəcəklər. Bu sualın əsas məqsədi şagirdlərə içkinin də yaxşı bir çıxış yolu olmadığını göstərmək və buradakı "içki"nin metaforik məna kəsb etdiyini izah etməkdir.

Obrazlarla empatiya qurmaq və onları həyatla əlaqələndirmək tədrisdə çox vacib məsələdir. Bu əsəri tədris edərkən də "Siz İsgəndərin yerində olsaydınız, nə edərdiniz?" kimi suallar verərək şagirdlərin obrazı daha yaxşı dərk etməsi və öz fikirlərini səlis ifadə etməsinə nail olmaq mümkündür.

Əsərdəki digər obrazların sosial və psixoloji vəziyyətini müzakirə etmək üçün müəllim "Sizcə, Şeyx Nəsrullah bu cəmiyyətdə necə bu qədər güclü ola bilmişdi? İnsanların onun xurafatlarına inanmasının səbəbi nə idi?" suallarını verə bilər. Təbiidir ki, cəmiyyətin savadsız olması, dinin insanları maarifləndirmək, düzgün yönləndirmək üçün yox, sui-istifadə edilərək onları qorxu içində saxlaması kimi faktorlar Şeyx Nəsrullahın işini daha da asanlaşdırır. Müəllim qeyd etməlidir ki, İslamda ölülərin dirilməsinə dair ayələrin bütün incəliklərini bilən, deməli, Qurani-Kərim hökmlərinə bələd olan İsgəndər hər hansı bir insanın ölüləri diriltməsinin cəfəngiyyat olduğunu qabaqcadan bilir məhz bu biliklə silahlanan İsgəndər əvvəlcə ətrafındakıları ayıltmağa çalışır, bu mümkün olmayanda isə, Şeyx Nəsrullahla üz-üzə gəlməyi qərarlaşdırır. İsgəndər Şeyx Nəsrullaha deyir: "Cənab Şeyx, hər nə qədər ki, bu qəbiristanlıqda (əli ilə göstərir) ölü basdırılıb, hamısını dirilt. Xa...xa...xa!" [2, s. 59]. Şeyx Nəsrullah İsgəndərin bu sözlərindən niyə sarsılır və niyə qorxuya düşür? Onu qorxudan təkcə kinayəli gülüşdürmü? Yox, Şeyx Nəsrullahı qorxudan bu amansız gülüşün arxasında dayanan sərt həqiqətdir. Şeyx Nəsrullah o dəqiqə başa düşür ki, ölülərin dirilməsi ilə bağlı İslam həqiqətlərini İsgəndər dəqiq bilir. Deməli, onun fırıldaqçı olduğunu da bilir. Şeyx Nəsrullah, məhz buna görə gecə ikən qaçıb aradan çıxır.

Pyesdə daha bir vacib məsələ isə qadın azadlığıdır. Müəllim əsərdə qadın obrazlarının vəziyyəti haqqında müzakirə başlatmalı, bu problemin dövrün ən böyük bəlalarından biri olduğunu qeyd edir. Həmçinin qadınların öz taleyini seçmək hüququndan məhrum olduğunu, erkən yaşda evləndirildiyini söyləyib bu bəlaları dəf etmək üçün yalnız təhsilli, maarifpərvər cəmiyyətin yaradılması fikrini vurğulamalıdır.

**Nəticə.** Savadsızlıq, qadın azadlığı, dindən sui-istifadə və ciddi sosial problem olan "öz arvadlarını yumruqla öldürmək", "ölən qardaşlarının arvadlarını almaq", "ölən dostlarının yetimlərinin malını yemək" mövzularına toxunan müəllim ədaləti, insani dəyərləri, vicdanlı olmağın əhəmiyyətini, dindən insanları istismar vasitəsi kimi yox, mənəvi yüksəliş üçün istifadə edilməli olduğu fikrini aşılamalıdır.

Dram əsərlərinin tədrisi zamanı şagirdlərin həmin əsəri səhnədə izləməsi də əhəmiyyətlidir. Burada onlar həmin dövrdə cəmiyyətin sosial problemlərini, xarakterlərin iç dünyasını və mənəvi dəyərləri daha dərindən anlaya bilərlər. Tamaşa vizual və emosional təsir gücünə malik olduğuna görə şagirdlərdə oxuduqları əsərlə bağlı daha güclü təəssürat yarada bilər.

Ümumiyyətlə, "Ölülər" dramının tədrisi şagirdlərdə yalnız ədəbi biliklər formalaşdırmır, eyni zamanda, onları təhsilin önəmini dərk etməyə, maarifçi düşüncəyə yönəldir. Bu baxımdan əsərin dərindən öyrənilməsi şagirdlərin mənəvi inkişafına mühüm töhfə verir.

**İstifadə edilmiş ədəbiyyat**
1. Abdullayeva M. Mətn şərhinin metodoloji əsasları. Dərs vəsaiti. Bakı: Füyuzat, 2024, 296 s.
2. Məmmədquluzadə C. Əsərləri. Beş cilddə. II cild. Bakı: Şərq-Qərb, 2013, 272 s.
3. Təyyar Salamoğlu. XIX əsrin sonu XX əarin əvvəlləri Azərbaycan ədəbiyyatının aktual problümləri. Bakı: Elm və təhsil, 2021, 664 s.
4. http://www.anl.az/down/meqale/baki_xeber/2017/noyabr/562120.htm (07. 03. 2025)

**Key words:** Illiteracy, education, superstition, women's rights, enlightenment
**Ключевые слова:** Неграмотность, образование, суеверие, права женщин, просвещение

**Summary**

The article analyzes Cəlil Məmmədquluzadə's play "Ölülər" and addresses several issues related to teaching the work. It highlights the thoughts of students on the work and the moral and ethical values that the teacher aims to instill while teaching the play. The article also explores how social issues such as education, religious superstitions, illiteracy, and women's rights in the late 19th and early 20th centuries are portrayed in the drama. The analysis reveals that all the issues in the play stem from an uneducated and illiterate society. The teacher's main goal is not only to help students grasp the content of the play but also to direct them towards contributing to the development of society and acquiring moral values and spiritual qualities. Through this approach, the teacher shapes not only the literary knowledge of students but also their moral perspectives.

**Резюме**

Статья анализирует драму Джалила Мамедкулузаде "Мертвые" и рассматривает ряд вопросов, связанных с её преподаванием. В статье выделяются мысли учащихся о произведении, а также моральные и этические ценности, которые учитель должен привить во время изучения произведения. Также в статье исследуется, как социальные проблемы, такие как образование, религиозные суеверия, неграмотность и права женщин, изображены в драме в контексте конца XIX — начала XX века. В результате анализа выявляется, что все проблемы в произведении происходят от необразованного и неграмотного общества. Главная цель учителя заключается не только в том, чтобы донести содержание произведения до учащихся, но и направить их на вклад в развитие общества, усвоение моральных ценностей и духовных качеств. Такой подход позволяет учителю формировать не только литературные знания учащихся, но и их мировоззрение.

**RƏYÇİ: dos. E.Vəliyeva**